## *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*

UOT 373

***Xalidə Ağadadaş qızı Talıbova***
*pedaqogika üzrə fəlsəfə doktoru*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA HUMANİZM TƏRBİYƏSİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU

***Халида Агададаш гызы Талыбова***
*доктор философии по педагогике*

# СУЩНОСТЬ И СОДЕРЖАНИЕ ГУМАНИСТИЧЕСКОГО ВОСПИТАНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Khalida Agadadash Talibova***
*doctor of philosophy in pedagogy*

# ESSENCE AND CONTENT OF HUMANISTIC EDUCATION IN CHILDREN OF PRESCHOOL AGE

**Xülasə.** Tarixi hadisə olmaqla humanizm əsrdən-əsrə çox əhəmiyyətli dəyişikliklərdən keçmişdir. Bu zaman onun mahiyyət və məzmunu ictimai-iqtisadi quruluşun, tarixi dövrün ideologiyasını əks etdirmişdir. Mövcud olduğu müddətdə ən yüksək dəyər kimi şəxsiyyət düşüncələri və inkişafı, insanın həyatının müxtəlif dövrlərinin daxili dəyərini anlamaq, daxili potensialını ortaya çıxarmaq ehtiyacı ilə zənginləşmişdir. Bir insanın şüurlu olması, həyatındakı rolunu başa düşməsi, qabiliyyətlərin ortaya çıxması, özünü inkişaf etdirməsi və özünü cəmiyyətlə uyğunlaşdırması üçün məktəbəqədər yaşdan optimal şəraitin yaradılması bu günün pedaqoji fəaliyyətinin məzmununu müəyyənləşdirir.

***Açar sözlər:*** *humanist insanın tərbiyəsi, qarşılıqlı münasibət, xeyirxahlıq, inam, hörmət, dostluq, qayğıkeşlik, kömək, ədalətlilik*

**Резюме.** Гуманистическая традиция никогда не угасала в культуре человечества и сохранялась философской мыслью в течение многих веков. На всем протяжении своего существования она обогащалась идеями личности как высшей ценности и ее развития, пониманием ценности различных периодов жизни человека, необходимостью раскрытия его внутреннего потенциала. Осознание человека, осмысление его роли в своей жизни, создание оптимальных условий для раскрытия способностей, саморазвития и самореализации в гармонии с собой и обществом с самого раннего детства определяет сегодня смысл педагогической деятельности.

***Ключевые слова:*** *воспитание гуманного человека, взаимоотношения, доброта, доверие, дружба, уважение, забота, помощь, справедливость*

**Summary.** The humanistic tradition has never faded away in the culture of mankind and has been preserved by philosophical thought for many centuries. Throughout its existence, it has been enriched with the ideas of personality as the highest value and its development, understanding of the intrinsic value of various periods of a person's life, the need to reveal his inner potential. Awareness of a person, understanding his role in his life, creating optimal conditions for the disclosure of abilities, self-development and self-realization in harmony with oneself and society from the earliest childhood determines the meaning of pedagogical activity today.

***Key word:*** *humanistic education, relationships, friendship, kindness, trust, respect, care, help, justice*

Cəmiyyətin xarakteri, onun maddi əsası adamlar arasında qarşılıqlı hörmət, dostluq, yoldaşlıq, bir-birinə kömək və yardım, humanist insanın tərbiyəsi üçün şərait yaradır. İnsan bu zaman qarşılıqlı münasibətləri anlayır, bu və ya digər şəxsin davranışlarını izləyir, onun hərəkətlərinə, xarakter xüsusiyyətlərinə, hadisələrə öz münasibətini bildirir. Deməli, başqa mənəvi keyfiyyətlər kimi humanizm də insanların bir-birinə olan münasibətləri prosesində yaranır.

Tarixi hadisə olmaqla humanizm əsrdən-əsrə çox əhəmiyyətli dəyişikliklərdən keçmişdir. Bu zaman onun mahiyyət və məzmunu ictimai-iqtisadi quruluşun, tarixin dövrün ideologiyasını əks etdirmişdir.

Sokratdan soruşurlar ki, insanda ən çox nəyi qiymətləndirirsiniz? Filosof tərəddüd etmədən cavab verir ki, "insaniyyəti". "Bəs insaniyyət dedikdə nəyi başa düşürsən?" sualına isə mütəfəkkür "insana layiq keyfiyyətləri,"- deyə cavab vermişdir. Bu keyfiyyətlər içərisində birincisi humanistlikdir.

İngilis yazıçısı Çarlz Dikkensə buna bənzər sual verilir: "Siz bu qədər çalışıb nə islahatı keçirmək istəyirsiniz?" sualına yazıçı cavab verir ki, "Xeyirxahlıq islahatını". İnsanın insanlığa və xeyirxahlığa olan ehtiyacı indi heç bir dövr ilə müqayisəedilməz dərəcədə artmışdır. Əgər insanları xeyirxahlıq uğrunda tərbiyə etmək mümkün olsa, həqiqətən cəmiyyətdə əmin-amanlıq və xoş əhval-ruhiyyə hökm sürər. Bu da bir həqiqətdir ki, insani münasibətlərdə bərabərlik olmayan yerdə nə hörmət, nə də insanpərvərlik olar. İnsanın insana xeyirxahlığı, hörməti insan üçün böyük dayaqdır. Qədim Şərq aforizmində deyildiyi kimi, "insana xeyirxahlıq göstərmək şama yağ, bitkiyə çiçək lazım olduğu qədər vacibdir". İnsanın insana humanistliyi onun qəlbinə təsir edir, onu həlimləşdirir və mülayimləşdirir. Əksinə insan özünə qarşı heç bir hörmət hiss etmədikdə tənhalıq, kimsəsizlik hiss edir. Hörmət zəncirvari bir reaksiya kimi yeni hörmət doğurur.

İnsanın insana humanistliyi onun daxili mədəniyyətinin və şəxsiyyət bütövlüyünün göstəricisi ictimai və əxlaqi davranışının meyarıdır. Buna nail olmaq üçün uşaqları kiçik yaşlarından nümunələr əsasında tərbiyə etmək lazımdır. Əgər gənc oğlan və qız qocaya paltosunu geyinməkdə, küçəni keçməkdə və ya bir şeyi daşımaqda kömək göstərirsə, özündən kiçiyə hər hansı bir işdə qayğı göstərirsə, bu, onun humanistliyidir və tərbiyəli olduğuna dəlalət edir. Hansı valideyn buna az əhəmiyyət verirsə, öz övladlarının davranışında buna nəzər yetirmirsə, şübhəsiz, o ciddi yanılır. Unutmaq olmaz ki, humanistlik mənəvi zənginliyin, əxlaqi saflığın və ruhi gözəlliyin ifadə formasıdır.

Humanizm latın sözü olub, humanus – insani, bəşəri deməkdir. Müasir təlim-tərbiyənin əsas prinsip və formalarından biri kimi humanizmin elmi-pedaqoji səciyyəsi ilk dəfə XVII əsrdə çex pedaqoqu Y.A. Komenski tərəfindən verilmişdir. O belə hesab edirdi ki, insanın tərbiyəsi özündə aşağıdakı dörd ünsürü birləşdirməlidir:

1. Humanizm və demokratizm tərbiyəsi
2. Vətənpərvərlik və ümumbəşəri hisslər tərbiyəsi
3. Əməksevərlik tərbiyəsi.
4. Düzlük, doğruçuluq və xeyirxahlıq hisslərinin tərbiyəsi.

Qeyd etmək lazımdır ki, əsasını insana məhəbbət və hörmət təşkil edən bu pedaqoji təlim qabaqcıl dünya pedaqoji sisteminə daxil olmuş və bu günə qədər yaşamaqdadır. Ümumən xalq humanizmi şər qüvvəyə, düşmənə barışmaz nifrət hissi ilə yoğrulmuş humanizmdir. Bütün dövrlərdə yaşayıb-yaratmış yüksək zəka sahibləri xalq kütlələrinin humanizmini tərənnüm etmişdir və bu gün də bu xidmət tərənnüm edilir.

Qədim Şərqin görkəmli əsərlərindən biri olan "Bilqamıs" dastanında, Bilqamısın xeyirxah işləri, şücaəti, qəhrəmanlıqları xalqın yaddaşında uzun müddət qalıb. Həmçinin, eldə, obada dildə-ağızda söylənən əhvalatlar, nəğmələr, ağılar əfsanəvi şəkillərə düşərək folklorlaşıb bütöv bir dastan olub. Bilqamıs miladdan öncə 2800-2700-ci illər arasında Şumer dövləti Urukun kahini və hərbi rəhbəri olub. Bilqamıs öz müdrikliyi, humanistliyi, mərdliyi, qəhrəmanlığı, ağlı və biliyi ilə məşhur hökmdar imiş. O bütün şər işləri dünyadan silmək üçün dənizin dərinliyinə enib "Ölməzlik çiçəyini" əldə edir. Çiçəyi əldə edən Bilqmıs sevinir və sevincinin ilk sədası bu olur: "Onu mütləq mən hasarlı Uruka çatdırmalıyam. Onu xalqıma yetirib, camaata verməliyəm".

Zərdüşt (eramızdan əvvəl 589-512-ci illər) tərəfindən yazılmış "Avesta"da ("Qanun kitabı") xeyir fikir, xeyir söz, xeyir iş irəli sürülən əsas əxlaqi şüardır. "Yaratdığı qədim dövrün si-

yasi, ictimai, fəlsəfi, dini baxışlarını, öyüd və nəsihətlərini özündə əks etdirən bu abidədə müasir pedaqoji baxımdan bizə yaxın görünən ondakı insani, humanist görüşlərdir: şərə nifrət, xeyirə məhəbbət, əməyə və fəaliyyətə çağırış ideyalarıdır, bütövlükdə xeyirin və gözəlliyin təsdiqidir" (2, s.101). Humanist ideyalar bu gün də bu qədim abidəni müasirləşdirir.

Mənəvi dünyamızın incisi sayılan humanizm ulularımızdan bizə bir ərməğan kimi gəlib çıxmışdır. Bu fikri "Dədə Qorqud"un "Dirsə xan oğlu Buğacın boyuna bəyan edir" boyunda yazılmış "Ac görsək doyurağıl, yalıncıq görsək donatqıl. Borcluyu borcundan qurtarğül"(3, s.69). kimi nəsihətamiz sözlər bir daha təsdiqləyir.

İnsana humanist münasibətin nümunəsi lətifə, nağıl və dastanlarımızda əsas etibarilə müsbət qəhrəmanlar vasitəsilə göstərilmişdir. Bu qəhrəmanlar həssas və qayğıkeşdirlər. Onların insanpərvərliyi, hər şeydən əvvəl, kütlənin, xalqın qeydinə qalmaqda, elin səadətinə toxunmaq istəyənlərlə amansız mübarizə aparmaqda təzahür edir.

"Dərd aşar, başdan keçər,
Kiprikdən, qaşdan keçər.
Doğru söz, doğru kəlam,
Dağ dələr, daşdan keçər" (2, s.76)

el misalında və ya

"Özündən böyüyün saxla yolunu,
Düşən yerdə soruş ərzi-halını,
Amanət-amanət qonşu malını
Qonşu yox, istəyən özü var olmaz".
"Çıxma düz yolundan, axtar doğru yol,
Hərcayı sözləri eyləmə qəbul.
İstəyənlə ilqarında möhkəm ol,
Hərdəm xəyallığın nə binası var" (2, s. 131).

Bütün bu nümunələr göstərir ki, xalq humanizmi insanı həmişə bir-birinə qayğı, böyüklərə və kiçiklərə hörmət və xeyirxahlıq göstərməyə çağırmışdır.

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan "Qurani-Kərim" müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm tərbiyə məktəbidir. Burada insan daim uca tutulmuş, yaxşı işlər görmək, haqq danışmaq təbliğ edilmişdir; "... Doğru yol tutan yalnız özünə, yoldan azan da ancaq özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz (hərə öz günahına cavabdehdir)" (5, s.216). Və ya "... Kim yaxşı bi iş görərsə, ona həmin işin on qatı (savabı) verilər. Kim pis iş görərsə, ona həmin işin misli qədər cəza verilər, onlara haqsızlıq edilməz" (5, s.145).

"Qurani-Kərim" Adəm oğluna valideynlərinə hörmət etməyi, son nəfəsə qədər onların qulluğunda durub ehtiramlarını gözləməyi, qohum-əqrəbaya kömək etməyi məsləhət bilir: "... Valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşlar. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara: "uf" – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış" (5, s.168).

Qocaman Şərqin klassik abidələrindən biri olan "Qabusnamə" əsərində ümumbəşəri problemlər haqqında – ata-anaya hörmət, ailə, ailə tərbiyəsi, elmi və dini biliklərə yiyələnmək, gənclik, qocalıq və s. haqqında qiymətli fikirlər irəli sürülür. Əsərdə ata və anaya hörmət ön plana çəkilir: "... Ana və ata sənin əsl böyüdənin və tərbiyə verənindir, sən onların haqqını ödəməkdə kahıllıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxınlığa layiq deyilsən. Övlad meyvəyə bənzər, ana və ata isə ağaca. Ağaca nə qədər xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar" (4, s.137).

Qabus oğluna hamıya yaxşılıq etməyi məsləhət bilir. O deyir: "Yaxşılıq et və yaxşılığı öyrət, çünki bunlar bir-birindən ayrılmaz əkiz qardaşlardır. Yaxşılıq etməkdən peşman olma" (4, s.58).

"Qabusnamə"də gənclərə sadəliyi, düzgün və doğruçuluğu, təvazökarlığı insanın yaraşığı hesab edən Qabus "...Ey oğul, sən doğru danışan ol, özünü doğru danışan tanıt" və ya dostluq və yoldaşlıq haqqında "...Deyiblər ki, "yaxşı dost böyük xəzinədir". Bir də səninlə dostlaşmaq istəyən, lakin hələlik yarıdost olan adamlar haqqında da fikirləş, onlara yaxşılıq et, qayğı göstər, xeyir-şərdə onlara kömək et. Səndə mərdlik gördükdə, dönüb sadiq dostun olarlar" deyir.

Birgəyaşayış şəraitində insanların bir-birinin dadına çatması, bir-birinə kömək, yardım əli uzatması zəruri, vacib hal kimi insaniyyətin əsasını təşkil edir. Bu baxımdan humanistliyin mahiyyəti, ifadə formaları ilə bağlı yaradıcılıq irsi

ilə sağlığında əbədiyyət qazanmış Nizami Gəncəvi xalqın işinə, əməlinə yararlı olmağı insaniyyətliliyin əsası kimi qiymətləndirir. O bildirir ki, öz həyat dünyasının bəzəyini artırmaq üçün arzu və istəklərlə yaşayan insan həmişə xoş ətir saçan xüsusiyyətləri ilə insaniyyətliliyini təsdiqləməlidir. Şair xatırladılan çağlarda insan üçün gərəkli, faydalı olan insani duyğuları aşağıdakı kimi ifadə edir:

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zərxara.
Xoş ətirlər saçmaq istəyən adam
Gültək xoşxasiyyət olmalı müdam. (1, s.281)

sualları ilə insanları qarşılaşdırır, deyilən müdrik fikirləri saf-çürük etməyə çağırır. Şair əsərlərində humanist ideyalar təbliğ etməklə insanları xeyirxah və qayğıkeş, düzgün və doğruçul olmağa, özündən böyüklərə hörmət etməyə çağırır.

Humanistliyin mahiyyət və məzmununu səciyyələndirən ədalət, insaf, səxavət, sadəlik, təvazökarlıq və digər tərbiyə komponentləri meyarları barədə Sədi Şirazi qiymətli fikirlər müəllifidir. Onun yaradıcılıq irsində insanları biganəlikdən çəkindirən fikirlər çoxdur. Bu baxımdan demokratik və xəlqilik şairin aşağıdakı misralarında daha bariz şəkildə ifadə olunmuşdur.

Oxşa könülləri, xalqı sal yada,
Təkcə öz haqqına qalma dünyada...
İnsanı yaşadan budur, doğrusu:
Yaxşılıq ümidi, pislik qorxusu (7, s.46).

Mənəvi təmizliyə, əxlaq saflığına, vicdan büllurluğuna son dərəcə böyük əhəmiyyət verən N.Tusi uşaqların və gənclərin mənəvi-əxlaqi tərbiyəsi ilə məşğul olmağı məsləhət görürdü: "...İnsanların ömürlərinin lap ilk çağlarından ata, ana tərbiyəsinə, sonra şəriət qayda-qanunlarına, daha sonra əxlaq və əqidənin saflaşdırılmasına, hikmətə çatmasına böyük ehtiyacları vardır. Əgər təbiətləri nəsihət qəbul edib hikmətə çatsa, onlar da yüksəlib səadətə çatmış olarlar, qəbul etməsələr, alçalıb aşağı səviyyədə qalarlar" (8, s. 68).

Dostluqda möhkəm, xeyirxah olmağı gənclərə məsləhət bilən N.Tusi yalan danışmamağı təkid edərək deyirdi: "...Sataşmaq, yalan danışmaq, ümumiyyətlə, pis şeydir, xüsusilə dostlara: yalanla dostluq bir yerə sığmaz" (8, c. 55).

Humanistlik ilkin əxlaqi kateqoriya olmaqla yanaşı, bütün mənəvi keyfiyyətlərin hamısına və ayrı-ayrılıqda hər birinə qaynayıb-qarışmaq və bu keyfiyyətlərin mahiyyət və məzmununa daha yaxın, daha vacib mənəvi keyfiyyətlərdəndir. Humanistlik məktəbəqədər yaşlı uşaqda tərbiyəvi mühit və tərbiyəvi təsir sayəsində təşəkkül tapır. İnsanı nizamlı münasibətlərə, tərəqqiyə, xoş ovqata istiqamətləndirən humanistlik əxlaq prinsipləri əsasında məktəbəqədər yaşlı uşaqlarda kiçik yaşlarından formalaşmalı və son nəticədə onların əqidəsinə çevrilməlidir. Buna görə də məktəbəqədər yaş dövründən uşaqlara insanlara qayğı ilə yanaşmağı öyrətmək lazımdır. Uşaqlar gücləri çatan xoş məramlı işləri yerinə yetirməyi özlərinin həm insaniyyətlilik, həm də vətəndaşlıq borcu hesab etməlidirlər.

Göründüyü kimi, humanistlik adamdan, sözün əsl mənasında, insan olmağı tələb edir. Bütün bu əlamətlərin ən əsasları ümumiləşdirilsə, *humanizm insanları başa düşmək və halına acımaq, şəxsiyyətin nailiyyətlərinə dərin hörmət, qayğı, zülmə və zorakılığa qarşı barışmazlıq* kimi ifadə edilir.

Əgər biz humanizmə əxlaqın prinsiplərindən biri kimi baxsaq, onda insan onun özünəməxsus sistem yaradıcı olar (elə buradan da "humanizm", "insanpərvərlik" anlayışı yaranır). Buradan belə nəticə hasil olur ki, humanizm pedaqogikanın – insan tərbiyəsi haqqında olan elmin əsas prinsiplərindən biridir. O, bütün tərbiyə prinsiplərini özündə cəmləşdirir və onların məzmununu zənginləşdirir. Onların hamısının əsasında insan şəxsiyyətinə humanist münasibət, məhəbbət, hörmət, qayğı durur.

Bütün bu proseslər humanizm tərbiyəsinin komponentlərini xarakterizə edir. Bu komponentlərə humanist hisslər, humanist münasibətlər, humanist keyfiyyətlər daxildir. Bu komponentlər davranışda təzahür etdiyinə görə, onlar məktəbəqədər yaşlı uşağın tərbiyəlilik səviyyəsinə təsir göstərir.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HUMANİZM TƏRBİYƏSİ MODELİ




**Problemin aktuallığı.** Pedaqogika elmi üçün əsas problem sayılan şəxsiyyətin humanizm tərbiyəsi əsrdən-əsrə çox əhəmiyyətli dəyişikliklərdən keçmişdir. Bu zaman onun mahiyyət və məzmunu ictimai-iqtisadi quruluşun, tarixin dövrün ideologiyasını əks etdirmişdir. Mövcud olduğu müddətdə ən yüksək dəyər kimi şəxsiyyət düşüncələri və inkişafı, insanın həyatının müxtəlif dövrlərinin daxili dəyərini anlamaq, daxili potensialını ortaya çıxarmaq ehtiyacı ilə zənginləşmişdir.

**Problemin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqların humanizm tərbiyəsinə əxlaqın prinsiplərindən biri kimi baxsaq, onda insan onun özünəməxsus sistem yaradıcı olar (elə buradan da "humanizm", "insanpərvərlik" anlayışı yaranır). Buradan belə nəticə hasil olur ki, humanizm pedaqogikanın – insan tərbiyəsi haqqında olan elmin - əsas prinsiplərindən biridir. O, bütün tərbiyə prinsiplərini özündə cəmləşdirir və onların məzmununu zənginləşdirir. Onların hamısının əsasında insan şəxsiyyətinə humanist münasibət, məhəbbət, hörmət, qayğı durur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali məktəb və məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə işlərinin təşkili prosesində istifadə etmək olar.

### Ədəbiyyat


1. Gəncəvi, N. İsgəndərnamə. -Bakı: Yazıçı, -1982
2. Həşimov, Ə.Ş. Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri. -Bakı, -1980, -231 s.
3. Kitabi-Dədə Qorqud. -Bakı: Azərnəşr,1962.
4. Qabusnamə. -Bakı: Azərnəşr. -1989, -237 s.
5. Qurani-Kərim. -Bakı: Azərnəşr, -1991, -368 s.
6. Nizaminin hikmət və nəsihətləri. -Bakı: Yazıçı, -1981, -218 s.
7. Şirazi, S. Gülüstan. -Bakı, -1960. -238s.
8. Tusi, N. Əxlaqi-Nasiri. -Bakı: Lider, -2005, -140 s.
9. Veysəlova, Ç.V. Məktəbəqədər yaşlı uşaqlarda humanizm tərbiyəsinin yolları və vasitələri. -Bakı, -2006


**E-mail:** xalidetalibova@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**, *ped.ü.fəls.dok.* **G.V. Sultanova**
**Redaksiyaya daxil olub**: 05.10.2021.